*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 439-445*

https://doi.org/10.62837/2024.11.439

**ABDULLAYEVA FİDAN MALİK QIZI**
**Azərbaycan Dillər Universiteti**
**Bakı ş., Rəşid Behbudov 134**
**e-mail: fidanabdullayeva1012@gmail.com**

# CON QRININ "ÇOXSAYLI KETRINLƏR" ROMANINDA GƏNCLİYİN KİMLİK BÖHRANI

**Açar sözlər:** Con Qrin, "Çoxsaylı Ketrinlər", gəncliyin kimlik böhranı, roman
**Ключевые слова:** Джон Грин, «Многочисленные Катерины», кризис идентичности молодежи, роман
**Keywords:** John Green, "An Abundance of Katherines", The Identity Crisis of Youth, novel

XXI əsr ədəbiyyat əsri kimi özünü, "mən"ini və azadlığını axtaran şəxsiyyət obrazıyla əlamətdardır. Bu ədəbiyyatı yaradanlar daha çox insan "mən"inin kövrəkliyini, şəxsiyyətin dəyərsizliyini, fərdin özgələşməsini dərk etmişlər. Ədəbiyyat əslində baş verənlər haqqında yazır, insanın bir fərd kimi həddindən artıq "yüklənməsindən", onun daşıya bilmədiyi bir neçə rollarından, cəmiyyətin fərdə "basqısından", dağıdıcı atmosferindən bəhs edirdi.

Müasir ABŞ yazıçısı Con Qrin (John Green, 1977) hər kəsə bəlli olan, əslində gerçəkdə ciddiyə alınmayan, fərdi dünyasının kütlə içində yox olub gedən həmin o gəncdən yazır, onun kimlik axtarışları ilə maraqlanır. Con Qrinin əsərlərinin əksəriyyəti sosial-mədəni vəziyyətlə müəyyən edilmiş çərçivələrdən çıxmağa və dünyada öz yerini tapmağa çalışan fərd arasındakı ziddiyyəti təsvir edir.

Təsadüfü deyil ki, yazıçının 2006-cı ildə işıq üzü görən "Çoxsaylı Ketrinlər" (An Abundance of Katherines) romanı ABŞ-da gənclərdən bəhs edən ən yüksək ədəbiyyat mükafatı – "Michael L. Printz Award"(2007) layiq görülür[3].

Hamının "vunderkind" adlandırdığı Kolin Sinqlton Çikaqoda yaşayır, yenicə məktəbi bitirib, amma depressiyadadır. Sevdiyi qız onu atıb və gənc "özünə gələ" bilmir. Ona elə gəlir ki, həyat sona yetib: "ağlaya bilmirdi.. göz yaşı tökə bilən hissəsini, onu tərk edən Ketrin özü ilə aparmışdı"[2, s.3]. Kolin "ağlı kəsəndən" Ketrin adlı qızlarla görüşür və hər dəfə bu münasibətlər ayrılıqla bitir. Lakin o, hər dəfə özgüvənini bərpa etmək üçün yenidən eyni adlı qızla görüşür, ona olan "yaxşı" münasibətdən sonra özünəinamı artır. Ketrinlər ona "vunderkind" deyir, amma eyni zamanda da onun ağlının "gücünə" tab gətirməyib ayrılırlar. Qızların belə davranışı tərk edilən Kolinə təsir etsə də, qəlbinin dərinliyində özü ilə, öz bənzərsiz kimliyi ilə qürrələnir. Özünün də işarələdiyi "XIX Ketrin" onu tərk edəndə "həyatı boyu qabiliyyətinə görə dəyərləndiyini"[2, s.3], amma özü kimi qəbul edilmədiyini dərk

edir. Bu fikir romanda dəfələrlə təkrarlanır: “Anası ona: - Kolin, sən qeyri-adi oğlansan. Bu qıza görə üzülmə - sən dahisən, bənzərsizsən və ...

- Məni rahat buraxın” deyə Kolin qışqırır”[2, s.4].

Kolin az bir müddətə demək olar ki, hər şeyi öyrənə bilir, çox oxuyur, aldığı hər bir məlumatı yadda saxlayır və bu səbəbdən xüsusi qabiliyyəti olan gəncdir. Onu evdə, məktəbdə “vunderkind” adlandırır, hər kəs kiçik yaşlarında ondan böyük “işlər” gözləyir. “Vunderkind” bacarığı orta məktəbdə Kolinə güvən hissi verir, sinifdə ən ağıllı olduğu fikrini gücləndirir. Lakin orta məktəbi bitirdikdən sonra vəziyyət dəyişir, indi o, “hamı kimi” olmaqdan qorxur. Qorxu hissi onda özgüvəninin itməsinə, kimlik böhranına yol açır.

Yeniyetməlikdən yetkinlik dövrünə keçiddə gənclər gerçək dünya ilə təmas qururlar. Məhz bu təmas zamanı onlar gerçək dünyanı “başqa” tərəfdən tanıyırlar. Erik Erikson yazır ki, insan həyatı boyu bir sıra yaş böhran ilə üzləşir. “Çoxsaylı Ketrinlər” romanının qəhrəmanı Kolin də bu mərhələni keçir. Erik Erikson yetkinlik yaşının ilkin mərhələsi ilə assosiasiya olan konflikti təcridolmaya qarşı dayanan yaxınlıq (intim) böhranıyla əlaqələndirir. Erik Eriksona görə, gənclər yeniyetməlik dövründə şəxsi kimliklərini qurduqdan sonra başqaları ilə intensiv və romantik münasibətlər qurmağa meylli olurlar [1, s.41]. Həyatın bu sahəsindəki uğursuzluq gənclərdə depressiyaya və güvənsizliyə gətirib çıxarır. Böyük həyata keçid üçün atılan addımlar bir qayda olaraq çaşqınlıq və qorxu hissiylə, özünə qapanma və təcridolma ilə müşayiət olunur. Tatyana Titarenko eyni fikri “yetkinliyin debüt böhranı” adlandırır və yazır ki, “Növbəti həyat böhranı adətən məktəbi bitirdiyiniz andan başlayır. Bu, yetkinliyin debüt böhranıdır. Ailə atmosferinizi yeni və tanımadığı bir atmosferə necə tərk etmək olar?” [6, s.78].

On yeddi yaşlı Kolin anaqrammı oyununu sevir və bu oyun yeganə məşğuliyyətdir ki, onu özü olmağa məcbur edir. Ketrin adlı qızlarla görüşənədək depressiv əhval-ruhiyə onu tərk etmir. Kolinin uşaqlıqdan İQ dərəcəsi yüksək olduğu üçün hər kəs onu dahi hesab edir. Yaşıdlarından fərqli olaraq Kolin hər şeylə maraqlanır. XIX Ketrin onu tərk edəndən sonra özünün də dediyi kimi, “sanki içimdə böyük bir dəlik var” - deyir[2, s.8]. Bu “dəliyi” bağlamaq, öz bütövlüyünə qovuşmaq üçün Həsənlə səyahətə çıxır və müxtəlif hadisələr fonunda öz kimliyini bərpa edir.

Həsən onun dostudur. Həddindən artıq kök olan Həsən tənbəldir. Lakin, o, çox ağıllıdır, düşdüyü situasiyalardan tanrıya olan sonsuz inamıyla çıxır. Həsən namaz qılır, özünün də dediyi kimi, “Tanrı bütün hallarda yanımızdadır”[2, s.25]. Həsənin ruh halı öz yaşına uyğundur və istənilən çətin hallarda tanrıya sığınır. Kolinin yenidən depressiyaya düşməsinin qarşısını almaq üçün onunla səyahətə çıxır. Həsən müsəlmandır, mütəmadi dua edir, namaz qılır, dini ayinlərə riayət edir. Həsənin güclü özgüvəni var və o, bu gücü allaha sığınmaqda görür. Həsən üçün allah sevgisi hər kəsə yetər və Ona sığınmaqla insan güclü olur. Həsən müsəlmandır, Kolins isə

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 439-445*

ateistdir və dindən çox uzaqdır. Həsən Kolinin kimliyini tapmaq və özgüvənini bərpa etmək üçün baş verəcək səyahətin ayrılmaz hissəsidir.

Kolinə elə gəlir ki, XIX Ketrinin onun tərk etməsindən sonra növbəti dəfə "Atılmışa" çevrilir. Bunun üçün keçmiş və bu gün müstəvisində Ketrinlərlə münasibətlərinin anaqrammını yaradır. Amma eyni zamanda da bu anaqrammı ershersoq Frans Ferdinandın keçmişi ilə "bu gününü" də ona əlavə edir: "O, öz keçmişi ilə ershersoqun keçmişini, bütün sonsuz keçmişlərin anaqrammını düzəltdi ki, gələcəyə təsir edə bilsin. XIX Ketrini xüsusi olaraq seçdi ki, onun dahi olmasını sevirdi. Beləcə, dünyadakı bütün Atılmışları daha təhlükəsiz etmək, yalnız bundan sonra öz əhəmiyyətini bildirəcəkdir"[2, s.12].

Doğma evindən səyahətə çıxan iki dost müxtəlif sərgüzəştlərlə qarşılaşır, bəzən səhv, bəzən isə düz qərarlar verirlər. Lindsi adlı qızla təsadüfü tanışlıq Kolinin həyatını dəyişir. Bu hadisəyə qədər iki dost yalanlar uydurur, özlərinə yeni adlar verir, yeni "kimliklər"də gizlənirlər: "Mənim adım Salinjedir, - dedi Həsən. Tələffüzü fransızlar kimi deyildi, amma başa düşülən idi. Bu isə mənim xalam oğlu Pyerdi. Biz ilk dəfədir sizin ölkədəyik və ershersoqun qəbrini ziyarətə gəlmişik, ingiliscə necə deyim? Birinci dünya müharibə...

Kolin Lindsiyə baxdı. O, saqqız çeynəyirdi və özünü gülməkdən güclə saxlayırdı.

- Mənim adım, Kolindir, - dedi futbolçu və salamlaşmaq üçün əlini uzatdı.

Həsən dostuna tərəf çevrilib pıçıldadı:

- Onun adı Başqa Kolindir, - sonra davam etdi: - Mənim xalam oğlu ingiliscə bilmir. Mən tərcüməçiyəm"[2, s.57].

Bu situasiyaya kimliyin böhranı kimi baxıla bilər. Başqası kimi görünmək, özü deyil başqası olmaq Kolinə ilk növbədə özündən qaçmaq, Həsənə isə dostuna yardım etmək məqsədini daşıyır. Görünür elə bu səbəbdən Həsən özünü yeni adla təqdim edəndə, Kolin susur, Həsən isə onun yerinə danışır. Köhnə kimlik modelinin itirilməsi və yenisinin axtarışı ilə səciyyələnən kimlik böhranından fərqli olaraq, yalançı(oxu saxta!) kimlik xilas yeri olduğu kimi, gənclərin cəzasına da çevrilə bilər. Başqa sözlə, öz yalanlarında dolaşıb qalan gənclərin yeni səhvlərinə yol açar. Davranışların mürəkkəbliyi təkcə dəyişən şərtlərə uyğunlaşmaq və özünü tapmaq deyil, eyni zamanda da kimliyini tapa biləcək şərtlərin olmamasıdır.

Digər tərəfdən o da qeyd edilməlidir ki, Kolin özünü "Atılmış" kimi görür. "Atılmış" anlayışı da Kolinin kimlik böhranına aid edilməlidir. Kolinin yaratdığı nəzəriyyə də bunu deyir: "Teorem mənim çoxdankı fərziyyəmin doğruluğunu isbat edir. Dünyada iki növ insan var: Atılmışlar və Atanlar. Əlbəttə, bütün insanlar mütləq Atılmışlar və Atanlar deyillər, lakin hər kəs müəyyən bir tip olmağa meyllidir" [2, s.15]. Erik Erikson öz əsərində kimlik böhranına məruz qalan insanların müxtəlif kateqoriyalarına diqqət edir, gənclər arasında öz müqəddəratını təyinetmə problemini daha dərindən araşdırırdı. O, yazırdı ki, "kimlik böhranı" fərdin üzləşdiyi vəziyyətə

münasibətdə ortaya çıxır, məsələn sevdiyin birini itirəndə, müstəqil həyatın başlanğıcında və s.

Kolin də yeni həyatın başlanğıcındadır və eyni zamanda da sevdiyi qız tərəfindən tərk edilib. Kolin daima özü ilə münaqişədədir, müxtəlif baxış bucaqları irəli sürür, onlara cavab axtarır: "Bu hekayənin məntiqi budur ki, xatırladığın şey baş verənlər deyil. Əksinə, xatırladığın şey baş verir. Və bu hekayənin ikinci məntiqi, Atanlar heç də Atılmışlardan pis deyillər. Ayrılmaq kiminsə sizə pisliyi deyil, ikinizin də başına gələn bir şeydir"[2, s.15]. Kolin sonda bu qərara gəlir ki, Atanlar heç də Atılmışlardan pis deyillər. Onlar atmaqla Atılmışlara həyat dərsi keçir, onları müstəqil həyata "öyrədirlər". Bu fikir onun suallarına cavab kimi görünür. Yalnız bundan sonra "Evrika" deyə qışqırır.

Maraqlıdır ki, Kolinin içindəki "dəliyi" bağlaya biləcək gücü ona dostu Həsən və yeni dostu Lindsi verir. "Bu anda dünyada heç bir teoremlə təsvir olunmayan gələcək Kolinin gözü önündə canlandı: sonsuz, sehrli və ecazkar.

- Evrika, - dedi Kolin və yalnız bundan sonra başa düşdü ki, bunu pıçıltı ilə deməyi bacarır.

- Mən bir şey başa düşdüm, - indi yüksək səslə dedi. - Gələcəyi öncədən görmək mümkün deyil.

- Kafir açıq-aydın görünən şeyləri yüksək səslə söyləməyi xoşlayır, - dedi Həsən və güldü.

Kolin Lindsidən kibrit alıb bütün vərəqləri yandırdı"[2, s.241]. Kolinin "Evrika"sı onun oyanışı ilə bitir. Kolin anlayır ki, keçmişi yandırmaqla gələcəyinə işıq salır. Bir neçə gün Lindsinin ailəsində yaşayan və yaratdığı nəzəriyyə üzərində işlədikdən sonra bu işi tamamladığı qənaətinə gəlir. Elə bu səbəbdən o, yazılarını yandırır. Yanğın metaforik mənada keçmişi unudub gələcəyə nəzər salmaq, diqqəti bu günə, indiki məqama yönəltmək qərarını təmsil edir. Görünür elə bu səbəbdən "gələcək sonsuzdur və əvvəl-axır bizi "udacaq"[2, s.238] – deyir Kolin.

Hər dəfə adı çəkilən ershersoq da romanda öz funksiyasını yerinə yetirir. Bütün əsər boyu Kolin onun qətlə yetirildiyi zaman sinəsində yekə bir dəlik açıldığını xatırladır. Hər dəfə Ketrini xatırlayanda onun da sinəsini sanki dəlib-deşirlər və Kolin sinəsində yekə bir dəliyin olduğunu zənn edir. Səyahət zamanı özünü tapan, öz kimliyinə qovuşan Kolin ershersoqun hələ də "dibsiz dəlik"də qaldığını, özünün isə ondan qurtulduğunu dərk edir.

O, Lindsi ilə yaxından tanış olur, onun nə qədər ağıllı bir qız olduğunu görür. Kolinin nəzəriyyəsi yalnız Lindsi ilə münasibətlərdən sonra "dağılır". Məhz Lindsi ilə düzgün münasibət Ketrinlərlə münasibətlərin "dağılmasına" aydınlıq gətirir. Bütün əsər boyu Kolin Ketrinlərdən qalan boşluğu doldurmaq, "sinəsində açılan dəliyi" bağlamaq və beləcə, dahi olmaq, bənzərsiz olduğunu sübut etmək istəyir. Lindsi onda özgüvən hissini yaradır, "mümkün olduğu qədər unikal"[2, s.258] olduğunu, bütün səhvləri, yanlışlıqları ilə "özü" olduğunu anladır.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 439-445*

Lindsi ilə bağlı bir vacib məqamı da qeyd etmək yerinə düşər ki, Kolinlə tanışlığa qədər o da səhv edir, sevdiyi insanı tanımır. Kolin kimi o, da kimlik axtarışlarından əziyyət çəkir. Kolinin kimlik axtarışları onu da bu istəyə sövq edir, öz işi, sevdiyi məşğuliyyəti, anasının varlığı onda özgüvən hissini daha da güclü edir. İnsanlara inamını artırır.
Bir müddət birlikdə olduqdan sonra Lindsi Kolini gizli saxladığı mağaraya aparır. Mağara gəncin gizli dünyası, hər kəsdən uzaq tutmağa çalışdığı daxili dünyasının metaforasıdır. Görünür elə bu səbəbdən Lindsi burada özünü təhlükəsiz hiss edir, güvəndiyi Kolini də bura gətirir. Məhz bu mağarada Kolin kimliyi ilə bağlı son qərarını verir: "yenidən özün olmaq üçün yer var – o, vunderkin olduğunu unudub özü üçün yeni və maraqlı hekayə yarada bilər, hər dəfə yenidən, təkrar-təkrar doğula bilər. Hər kəs ola bilər - sadəcə əvvəl olduğu heç bir zaman olmayacaq" [2, s.53].
Kolin Lindsiyə Ketrin adlı qızlarla uğursuz münasibətlərindən bəhs edir, Lindsi isə nə qədər eqoist olduğunu açıqlayır. Onlar biri-birinə həyatın mənasından, sevgidən, gələcək planlardan söz açırlar. Kolin başa düşür ki, onun həyatının mənası "dahi" olmasıyla bağlı deyil. Onun həyatını mənalı edən digər insanlarla qurduğu əlaqələrdir. Yalnız, indi "Evrika" anına yetişir. Kolin dərk edir ki, hamı üçün "dahi" olmağa məhkum deyil. Beləliklə, doğma insanlardan ayrılıb səyahətə çıxmaqla özünütəcrid məqamına çatır. Səyahət ona özünü kəşf etməyə, yeni dostlar əldə etməyə, həyata yeni bucaqdan baxmağa yol açır. Peter Vessel Sapffe "Sonuncu Məsih" essesində yazır ki, özünü dərk edən bütün varlıqlar öz mövcudluqları qarşısındakı qorxunu adlamaq üçün müəyyən yollardan istifadə edirlər. Bura özünütəcrid, yayınma və sublimasiya kimi qoruma mexanizmləri aiddir [5].

Lindsiyə gəldikdə o, da öz keçmişini adlaya bilir və futbolçu dostu Kolin ilə münasibətlərini birdəfəlik kəsir. Kolin kimi keçmiş Ketrinləri günahlandırmır. Görünür elə bu səbəbdən Kolin ilk günlər kimlik böhranı yaşayır və səbəbini özündə deyil, Ketrinlərlə alınmayan münasibətlərdə görür. Lakin sonda, çoxsaylı Ketrinlərin sirrini aça bilir, özünə dönür və kimliyini bərpa edir.

"Çoxsaylı Ketrinlər" romanı gənclərə onların qeyri-adi (oxu dahi!) olması ilə deyil, digər insanlarla düzgün münasibətlərin qurulması fonunda özünü, öz kimliyini dərk etməyin yollarını göstərir. Eyni zamanda da oxucuya bu fikirləri ötürür: gələcəyin arxasınca qaçmaq, onu dəyişməyə çalışmaq lazım deyil. Səndən dahi olmağı istəyəcəklər, amma sən ilk növbədə özün olmalısan, öz kimliyini qəbul etməlisən. Əgər on doqquz qız səni tərk etsə belə, heç bir vəziyyətdə ümidini itirməməlisən. Görünür elə bu səbəbdən müəllif Kolini müəyyən sınaqlardan keçirir, kimliyinin bərpasını başqaları ilə münasibətdə təqdim edir. Kolinin həyatında baş verən həyat situasiyalarını müxtəlif Ketrinlərlə sınaqdan keçirir, beləliklə, onun xarakterini açır, fərd kimi özünəməxsusluğunu önə çəkir. Onu bir şəxsiyyət kimi müəyyən edən davranışlarını və kimlik axtarışlarına gedən yolları təsvir edir.

## Ədəbiyyat

1. Erikson, E. H. Identity: Youth and Crisis. New York: W. W. Norton, 1998. 336p.
2. Green J. An Abundance of Katherines. .Penguin Books. 2008. 272p
3. Los Angeles Times Names Book Prize Winners For 2006 // Los Angeles Times. April 27, 2007
4. Scherff L. Literature is a cold dead place: An interview with John Green // English Journal. Vol. 97, No. 3, 2005. 67-71p.
5. Zapffe P.W. The Last Messiah https://openairphilosophy.org/wp-content/uploads/2019/06/OAP_Zapffe_Last_Messiah.pdf
6. Титаренко, Т. М. Испытание кризисом: Одиссея преодоления. М.: «Когито-Центр», 2010. 304 с.

**Abdullayeva F.M.**

**Con Qrinin "Çoxsaylı Ketrinlər" romanında gəncliyin kimlik böhranı**

**Xülasə**

XXI əsrin maraqlı yazıçılarından olan Con Qrinin romanları bir qayda olaraq müasir gənclikdən bəhs edir. Onun əsərləri müəyyən edilmiş çərçivələrdən çıxmağa və dünyada öz yerini tapmağa çalışan gəncliklə cəmiyyət arasındakı ziddiyyətləri önə çəkir. Bu ziddiyyətlər fonunda gəncliyi düşündürən problemlər istənilən əsərinin ana xətt kimi təqdim edilir.
"Çoxsaylı Ketrinlər" romanı da gənclərdən bəhs edir. Lakin bu gənclərin problemi təkcə cəmiyyətlə deyil. Onlar kimlik böhranı yaşayır, öz "Mən"ini axtarır və bu yolda qarşılaşdıqları maneələri dəf edirlər. Romanın baş qəhrəmanı Kolin bir fərd kimi həddindən artıq "yüklənib", ona daşıya bilmədiyi bir neçə rol verilib. Evdə, məktəbdə, yoldaşları arasında onu dahi təxəllüsü ilə adlandırırlar. Kolin ona sırınan bu "yükü" qaldıra bilmir. Hamıya uyğun olmaqla o, öz kimliyini itirir və kimlik böhranı yaşayır.
Məqalə müəllifi Erik Eriksonun kimlik böhranı ilə bağlı nəzəri fikirlərinə müraciət edir, "Çoxsaylı Ketrinlər" romanını təhlil edir və gəncliyin qarşılaşdığı problemlərə aydınlıq gətirməyə çalışır.

**Абдуллаева Ф. М.**

**Кризис идентичности молодежи в романе Джона Грина «Многочисленные Катерины»**

**Резюме**

Как правило, романы Джона Грина, одного из интересных писателей XXI века, рассказывают о современной молодежи. Его романы освещают противоречия между обществом и молодежью, пытающейся вырваться из устоявшихся рамок

и найти свое место в мире. На фоне этих противоречий проблемы, волнующие молодежь, выступают в качестве основной линии любого романа.
Роман «Многочисленные Катерины» также о молодёжи. Однако проблема этих молодёжь не только с обществом. Они переживают кризис идентичности, ищут свое «Я» и преодолевают препятствия, встречающиеся на их пути. Колин, главный герой романа, «перегружен» как личность, ему дают несколько ролей, которые он не может выполнить. Дома, в школе, среди друзей его называют гением. Колин не может справиться с этой «бременю», возложенной на него. Приспосабливаясь, он теряет свою идентичность и переживает кризис идентичности.
Автор статьи обращается к теоретическим идеям Эрика Эриксона о кризисе идентичности, анализирует роман «Многочисленные Катерины» и пытается прояснить проблемы, с которыми сталкивается молодежь.

**Abdullayeva F. M.**

**The Identity Crisis of Youth in John Green's Novel**
**"An Abundance of Katherines"**
**Summary**

As a rule, the novels of John Green, one of the interesting writers of the 21st century, are about modern youth. His novels highlight the contradictions between society and young people trying to break out of the established framework and find their place in the world. Against the backdrop of these contradictions, the problems troubling young people act as the main line of any novel.
The novel "An Abundance of Katherines" is also about youth. However, the problem of these young people is not only with society. They are going through an identity crisis, searching for their 'I' and overcoming the obstacles that meet on their way. Colin, the protagonist of the novel, is 'overwhelmed' as a person, he is given several roles that he cannot fulfil. At home, at school, among his friends, he is labelled a genius. Colin cannot cope with this 'burden' placed on him. As he adapts, he loses his identity and experiences an identity crisis.
The author of the article refers to Erik Erikson's theoretical ideas about identity crisis, analyses the novel "An Abundance of Katherines" and tries to clarify the problems faced by young people.

**Rəyçi: filol.e.d., professor Həmidə Əhməd qızı Əliyeva**